**UOT 821.411.21**

**Şıxəli ƏLİYEV**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**sheyxali77@gmail.com**

# İSLAMAQƏDƏRKİ DÖVRDƏ ƏRƏBLƏRİN İCTİMAİ-SİYASİ VƏZİYYƏTİ

**Açar sözlər:** Cahiliyyət, Kində, Qəssanilər, Ləxmilər, İmrul-Qeys, İslam
**Keywords:** Jahiliyyah, Kindah, Ghassanids, Lakhmids, Imru' al-Qais, İslam
**Ключевые слова:** Джахилия, Кинда, Гассаниды, Лахмиды, Имрул-Кайс, Ислам

**Giriş.** Ərəblərin İslamdanöncəki tarixi Cahiliyyət dövrü adlanır. İlk dəfə Qurani-Kərimdə qeyd edilmiş bu termin Ərəbistan yarımadasında yeni tarixi mərhələnin başlanğıcı olan İslam dininin gətirdiyi dünyagörüşünə uyğun gəlməyən fikirlərə, düşüncələrə və onların yayıldığı əvvəlki dövrə aid edilir. Cahiliyyət dövrü ərəb poeziyasının yaranıb formalaşdığı, ərəb kimliyinin, dövlətçiliyinin təşəkkül tapdığı dövrdür. Bu zaman kəsiyi ərəblərin sonrakı taleyində böyük rol oynamış mühüm ictimai-siyasi hadisələrin şahidi olmuşdur.

İslamaqədərki ərəb tarixinin mərhələlərini hərtərəfli əhatə edən ilkin yazılı qaynaqlar, demək olar ki, hələlik bilinmədiyindən, bu dövr haqqında məlumatları əsasən İslamın zühuruna yaxın dövrdə yazılmış yunan, Roma, süryani və qədim fars mənbələrindən, eləcə də İslam dövründə qələmə alınmış əsərlərdən əldə etmək olar. Ərəbistan yarımadasının müxtəlif yerlərindən tapılmış daş kitabələr isə o dövrün ümumi ictimai-siyasi, iqtisadi mənzərəsi haqqında az məlumat verir. Əsasən şəxsi məsələlərlə, ev, məbəd tikintisi, sağlamlıq vəziyyəti ilə bağlı olan bu kitabələrin elektron kataloqundan [4] da görünür ki, İslamaqədərki ərəb cəmiyyətlərinin tarixini öyrənmək üçün onlar kifayət olmasa da, son dövrlərdə tapılan yeni-yeni epiqrafik abidələr qədim ərəb tarixinin qaranlıq və az tədqiq edilmiş ayrı-ayrı mərhələlərinə, problemlərinə işıq salmağa kömək edir. Məsələn, Yəməndə Cəbəl Riyamda 2006-cı ildə tapılmış kitabədə Səba dövlətinin şimal ərazilərlə, o cümlədən Bizansla, Qəssanilərlə, Tənuxilərlə və digər qəbilələrlə münasibətlərini öyrənmək mümkündür [16]. Eləcə də Ərəbistan yarımadasının cənubunda tapılmış yazılar ərəb qəbilələri arasında münasibətlərə dair müəyyən təsəvvürlər verir [50].

Cahiliyyət dövrünün tədqiqində İslam dövründə qələmə alınmış ərəbdilli mənbələr əhəmiyyətlidir. İbn Quteybə, əl-Cüməhi, ət-Təbəri, İbn əl-Əsir, əl-Məsudi, Əbul-Fərəc əl-İsfəhani kimi müəlliflərin əsərlərində İslamaqədərki dövrdə ərəblərin həyatının müxtəlif aspektləri barədə zəngin məlumatlar vardır.

Bu dövrün araşdırılmasında Qərb şərqşünaslarının rolu da danılmazdır. R.Nikolson, D.Marqolius, İ.Qoldziher kimi şərqşünaslar tədqiq etdiyimiz mövzu ilə bağlı sanballı əsərlər yazıblar. Ərəb alimlərindən Cavad Əli, İrfan Şahid, Nasirəddin əl-Əsəd, Şövqi Dayf, İbrahim Mumayiz və başqalarının bu sahədə fundamental tədqiqatları həmin dövrün qaranlıq məsələlərinə işıq salmağa yardım edir.

Azərbaycanlı şərqşünaslardan prof. Aida Qasımovanın tədqiqatları xüsusilə qeyd edilməlidir. Bu tədqiqatlar ərəblərin o dövrdə yaşayışı, məişəti, qəbilə quruluşu, dini dünyagörüşləri, ictimai-siyasi vəziyyəti və bədii yaradıcılığı haqqında mühüm əsərlərdir.

Tədqiq edilən mövzunun genişliyini və bir məqalə çərçivəsinə sığışdırılmasının mümkün olmadığını nəzərə alaraq, bu yazımızda ərəb qəbilələrinin yayıldığı coğrafiya haqqında məlumat verəcək, həyatlarında baş verən ən mühüm hadisələri nəzərdən keçirəcək, o dövrün ümumi ictimai-siyasi mənzərəsini təqdim etməyə çalışacağıq.

**Cahiliyyət dövründə Ərəbistan yarımadasında ictimai-siyasi durum.** Cahiliyyət dövründə ərəblər Ərəbistan yarımadasında geniş coğrafiyada məskunlaşmışdılar. Bu ərazi çaylar və dənizlərlə əhatə olunduğuna [47, c.2, s.137] görə, yaxud burada ərəb dili sıx danışıldığı üçün [60, s. 39] "Cəziratul-arab" ("Ərəblərin adası"), qısaca, Cəzirə (ada) adı ilə də tanınırdı.

Bəzi kiçik fərqlər istisna olmaqla, yarımadanın iqlimi əsasən sərtliyi və quraqlığı ilə seçilirdi. Səhra şəraiti, həddən artıq bürkülü hava, xarakterik olan öldürücü isti xəmsin, səmum küləkləri yaşayışı çətinləşdirirdi. Bəzən gecələr əsən Səba yeli insana sanki həyat bəxş edirdi. İlin çox vaxtını qurumuş vadilər qısamüddətli, bol yağıntılar nəticəsində gur sulu olur, dağıdıcı sellərə səbəb olurdu. Quranda, mənbələrdə belə sellərdən biri (Ərim seli) nəticəsində Mərəb səddinin dağılması qeyd edilir ("Səba" surəsi, 16-17-ci ayələr). Cahiliyyət poeziyasında belə gur sellərin, vahələrin təsviri verilir. Bu təhlükələrə baxmayaraq, yağış ərəb üçün göylərin rəhmi, köməyi idi. Buna görə yağışa həm də mərhəmət, kömək mənasında "ğeys" deyirdilər. Səhrada həyat kontrastlardan, kəskin keçidlərdən ibarət idi. Gündüzlərin sərt istisi axşam şiddətli soyuqla əvəz olunurdu. Suya təşnə yerlər yağışın gurluğu üzündən selə məruz qalırdı. Yeri gəlmişkən qeyd edək ki, bütün bunlar ərəbin xarakterində, mental dərinliklərində öz təsirini buraxır, onun poeziyasında dilə gəlirdi.

Yarımadada sellərin qarşısını almaq və sudan səmərəli istifadə etmək məqsədilə bir neçə bənd tikilmişdi. Məsələn, cənubda, əsasən dağlarla əhatələnmiş Yəməndə yerləşən Mərəb bəndi Səba, Himyər dövlətlərinin həyatında mühüm rol oynayırdı. Dövrünün nəhəng tikilisi hesab edilən bu bəndin suyu səhra ilə sərhəd ərazilərin, eləcə də Hadramautun suvarılmasını təmin edirdi və oraları bağ-bağata çevirmişdi [8, s.55]. Bu bəndin yaratdığı, səhrada möcüzə sayılacaq yaşıllıqlar, bağlar barədə, eləcə də cəmiyyətin inkişafı barədə mənbələrdə ("Səba" surəsi, 15-ci ayə), o cümlədən "Quran"da da məlumat verilir ("Səba" surəsi, 16-17-ci ayələr).

Ərəblərin müəyyən hissəsi yarımada daxilində köçəri həyat tərzi keçirirdi. Amma kəndlərdə, şəhərlərdə məskunlaşmış oturaq ərəb qəbilələri də var idi. Nümunə üçün deyək ki, Aus və Xəzrəc qəbilələri Mədinədə, Səqif qəbiləsi Taifdə məskunlaşmışdı, Təğlib, Bəkr və İyad qəbilələrinin bir qismi Cəzirədə və İkiçayarasında oturaq həyat tərzi sürürdü. Oturaq qəbilələrin əksəriyyəti Mədər əhli adlanırdı.

Ərəb cəmiyyəti bir-biri ilə qan qohumluğu əsasında formalaşmış qəbilələrdən ibarət idi. Hər bir ailənin öz *"xeymə"*si (çadır) var idi. Bir neçə xeymə isə "*hayy*" (oba) formalaşdırırdı. Bir hayyın nümayəndələri *"qaum"* (qövm, klan) təşkil edirdi. Qan qohumluğu ilə bağlı olan bir neçə qövm qəbiləni yaradırdı [15, s.2]. Qəbiləyə şeyx başçılıq edirdi və onun nüfuzu həddən artıq yüksək idi.

Rəvayətlərin əksəriyyəti ərəblərin üç qismə – *“arab bəidə”* (yox olub getmiş ərəblər), *“arab aribə”* və ya *“mutaarribə”* (əsl ərəblər) və *“arab mustarabəy”*ə (sonradan ərəbləşmiş ərəblər) bölündüyünü xəbər verir. Ad, Səmud, Əmaliqə, Tasm, Cədis qövmləri soyu itmiş ərəblərdən hesab edilirdilər [56, s.395; 58, s.333]. Nəsəb baxımdan isə ərəbləri Qəhtanilərə (ilk vətənləri Yəməndir) və Ədnanilərə (ilk vətənləri Hicazdır) ayırırdılar. Ərəblərin nəsəbləri barədə geniş məlumatı Cavad Əlinin “əl-Mufassal fi tarix əl-arab mə qabləl-islam” fundamental əsərindən əldə etmək olar [44, s.294-509].

Cahiliyyət ərəblərində nəsil, nəsəb mühüm idi. Nəsəbləri onların cəmiyyətdə yerini müəyyən edir, şeirlərdə onları fəxr, mədh və qınaq (həcv) obyektinə çevirirdi. Misir tarixçisi Əhməd Əminin dediyi kimi, ərəblərin bir-biri ilə müharibələrini öyrənmək, şeiri, xüsusilə həcv və fəxriyyəni başa düşmək üçün ərəb *“asabiyyə”*sini (qəbilə təəssübkeşliyi) bilmək lazımdır [40, s.8]. Ümumiyyətlə, köçəri cəmiyyətlərdə insanların qan qohumluğu əsasında bir icmada birləşməsi təbii ehtiyac idi və bu, *asabiyyə*nin yaranmasına gətirib çıxarırdı. Torpağa oturaq əhali qədər bağlı olmayan köçərilərdə soya bağlılıq çox idi. Bu da onlara digərlərindən fərqli kimlik verirdi. İbn Xəlduna görə, qan qohumlarına şəfqət insanın xilqətindən gəlir və bəşər övladının təbiətində vardır. Bununla düşmənlərindən birlikdə müdafiə olunurdular [34, s.173]. *“Qəbilə səhrada həyatın sütunu idi. Köçəri ərəb özünü və malını-mülkünü müdafiə edərkən ona sığınırdı. Səhrada təcavüzkarı cəzalandırmaq üçün nə polis var idi, nə də cəmiyyətin qanunlarından kənar çıxanları həbs etmək üçün həbsxanalar. Orada bir təəssübkeşlik var idi ki, onunla haqq-ədalət tənzimlənirdi, bir də yerli adət-ənənələr var idi ki, ona da itaət olunmalı idi”* [46, s.313].

Maraqlıdır ki, *“asabiyyə*” sözünün yarandığı *“asabə”* feilinin mənalarından biri də “qan bağı ilə bağlı olmaq” deməkdir. Asabiyyə qan qohumluğundan əlavə, geniş sosial məna daşıyırdı, qəbilədaxili və qəbilələrarası münasibətlərin tənzimlənməsində yazılmamış qanun idi. Burada bir haşiyə çıxıb qədim türklərdəki *“törə”* anlayışı ilə *“asabiyyə”* arasında müəyyən paralellər aparmaq olar. Asabiyyə kimi, törə də həyat tərzi olmaqla yanaşı, türklərin qəbilə daxilində və qonşuları ilə münasibətləri tənzimləyirdi. Amma “*törə*” “qanun”dan daha geniş mənanı əhatə edir. Türk tarixçisi Z. Göyalpa görə, yazılmış yasalardan başqa yazılmamış münasibətlər məcmusu da törənin içində idi, eləcə də əski türklərə atalarından qalan bütün qaydaların məcmusuna “*törə*” deyilirdi [30, s.13-14]. Bundan başqa, asabiyyə dövlətin qurulmasında əsas səbəblərdən biri sayılır, eyni zamanda dövlətin inkişafına mane olduğu qeyd edilirdi [34, s.205]. “Türk törə”si isə dövlətin qurucu və eyni zamanda qoruyucu sütunlarından idi. Digər türk tarixçisi B. Ögələ görə, “*törə*” “dövlətin quruluş düzəni və fəaliyyətini təmin edən”, dövlətin əsas varlığı mənasında işlədilirdi [26, s.469]. Fərqli iqlimli coğrafi məkanlarda yaşayan, amma həyat tərzi əsasən köçərilik olan qədim ərəblərin *“asabiyyə”* və türklərin *“törə”* anlayışları arasında oxşar və fərqli cəhətlərin təhlili ayrıca bir məqalənin mövzusu ola bilər.

Cahiliyyət dövründə, xüsusilə köçəri cəmiyyətlərin (bədəvi) iqtisadi, sosial, eləcə də hərbi, siyasi strukturu ətraf mühitin, coğrafiyanın, iqlimin şərtlərinə uyğun təşəkkül tapırdı. Sosioloq Block-un dediyi kimi, ətraf mühitlə cəmiyyətin formaları arasında güclü əlaqə vardır [27, s.20]. Başqa sözlə desək, yaşayış mühitinin özəllikləri özünəməxsus davranışları olan həyat tərzi formalaşdırmışdı. Su ehtiyatlarının az olduğu bu coğrafiyada ərəb qəbilələri əsasən köçəri heyvandarlıqla, vahələrdə isə əkinçiliklə məşğul olurdular. Karvan yollarının üzərində yerləşən yerlərdə (Yəməndə) isə ticarətlə dolanırdılar. Köçəri ərəblər ucsuz-bucaqsız səhrada

azmamaq, yeni otlaq sahələrini axtarıb tapmaq, sututarları müəyyən etmək üçün təbii şəraitdən asılı idilər və bu da onlarda güclü məkan duyumunun yaranmasına gətirib çıxarmışdı. "Coğrafi determinizmi" – iqlimin əsas təbii faktor olduğunu ərəblərin həyatında görmək olardı.

Köçərilər sərt təbii şəraitdə sağ qalıb yaşamaları üçün bacarıqlı və nüfuzlu qəbilə başçılarına möhtac idilər. Məşhur ərəb ədibi Cahizə görə, qəbilə şeyxləri nüfuzlarını qorumaq üçün səxavətlilik, yardımsevərlik, qoçaqlıq, təmkinlilik, təvazökarlıq və gözəl natiqlik xüsusiyyətlərini özlərində birləşdirməli idilər [41, s.90].

Cahizdən çox sonralar yaşamış məşhur sosioloq alim Arnold Toynbi də köçəri qəbilə başçısının daimi mübarizədə qalib gəlməsi üçün güclü, özünə güvənən, mənəvi və maddi cəhətdən üstün şəxs olmasının vacibliyini yazırdı [29, s.146]. Cahiliyyət ərəbləri başçılarını xilaskar, dayaq, son anda sığınılacaq bir insan kimi görmək istəyirdilər. Şair Xənsa mərsiyəsində qəbilə başçısı qardaşı Saxrı "yetimlərin sığınacağı, müsafirin yardımçısı" adlandırırdı [51, s.16].

Tədqiq etdiyimiz dövrdə Ərəbistan yarımadasının şimalında və cənubunda kiçik ərəb qəbilə dövlətləri mövcud olmuşdur. Onlar arasında gərgin mübarizələr çox vaxt qanlı müharibələrə gətirib çıxarırdı. Mübarizə aparan tərəflər Bizans, Həbəş krallarından, Sasani şahlarından dəstək alırdılar. Şimaldakı dövlətlərin əksəriyyəti Yəməndə Mərəb bəndinin dağılmasından sonra müxtəlif vaxtlarda şimala köçmüş Kində, Ləxmilər və Qəssanilər tərəfindən yaradılıb. Amma bənd müxtəlif vaxtlarda bir neçə dəfə dağıldığı üçün bu köçlərin dəqiq tarixini müəyyən etmək mümkün deyil. Mərəb bəndinin dağılması nəticəsində baş verən quraqlıq, iqtisadi tənəzzül ayrı-ayrı ərəb qəbilələrinin də həyatına təsirsiz ötüşməmişdir.

**Qəssanilər dövləti.** Təxminən V əsrin ortalarında cənubdan köçüb gələn Qəssanilər indiki Suriya ərazisində ilk dövlətlərinin əsasını qoydular. Hanna əl-Faxuri Qəssanilər dövlətinin miladi III əsrin əvvəllərindən İslam fəthinə qədər (VII əsrin əvvəllərinədək) mövcud olduğunu qeyd edir [48, s.77].

Dövlətin sərhədləri Qəssani hökmdarlarının hakimiyyəti illərində tez-tez dəyişmiş, əraziləri kiçilib-böyümüşdür. İslamaqədərki ərəb tarixinin tanınmış tədqiqatçısı Cavad Əlinin fikrincə, Qəssanilərin əsas mərkəzləri Dəməşqin cənubundakı Colan məntəqəsi olmuşdur [45, s. 440; 42, s.52]. Mənbələrin verdiyi məlumatlardan və Qəssanilərə aid son zamanlar üzə çıxarılmış memarlıq abidələrinin qalıqlarından, artefaqlardan məlum olur ki, bu dövlət Suriyanın geniş ərazilərini əhatə etmişdir. Havran və Bəlqa məntəqələri də bu sülalənin hakimiyyəti altında olmuşdur [40, s.18].

Qəssanilər dövlətinin əsasını Cəfnə bin Əmr bin Amir Miziqiya qoymuşdur [45, s.399]. Onun 45 ildən çox hökmranlıq etdiyi bildirilir [45, s.399; 13, s.34]. Miziqiyadan sonra Əmr bin Cəfnə, Sələbə bin Əmr, əl-Haris bin Sələbə, Cəbələ bin əl-Harisin hakimiyyət illərində Qəssanilər möhkəmlənməkdə davam etmişlər.

VI Qəssani hökmdarı əl-Haris bin Cəbələnin dövrü (529-569) Qəssanilərlə Bizans əlaqələri tarixində əhəmiyyətli mərhələ təşkil edir. Bu dövr Qəssanilər dövlətinin güclənməsi və özünü nisbətən müstəqil aparmağa meyillənməsi ilə diqqəti çəkir. Əl-Haris Bizans imperatoru Yustinianın dövründə (527-565) Sasanilərə qarşı iki müharibədə və digər döyüşlərdə iştirak etmişdir. O, Bizansın təhriki ilə Sasanilərin müttəfiqi Ləxmilərin hökmdarı əl-Numana 554-cü ildə Qinnasrin adlı yerdə baş vermiş döyüşdə qalib gəlmişdir. Ərəb tarixinə "Yaum Həlimə" günü kimi düşmüş bu hadisədən sonra Bizans tərəfindən *patricius* titulu ilə mükafatlandırılmışdır. O, *Philarkh* (Qəbilələrin şeyxi) ləqəbindən başqa bu ikinci

titula da layiq görülmüş ilk ərəb hökmdarı hesab edilir [13, s.35]. Qeyd edək ki, *philarkh* imperatordan sonra ən böyük titul idi. Bununla imperator əl-Haris bin Cəbələnin Şamda bütün ərəblərin üzərində mütləq suverenliyini tanıyırdı. Suriya və ərəb mənbələrinin, eləcə də Prokopi Kesariyskinin verdiyi məlumata görə [25, s.195], *philarkh* titulunu əl-Harisdən sonra oğlu əl-Münzir daşımışdır ki, bu da onların nüfuzunun göstəricisi sayıla bilərdi.

Əl-Haris bin Cəbələnin hakimiyyət illəri Qəssanilərin çiçəklənmə dövrü hesab edilir. O, Konstantinopola səfəri zamanı imperatorun yanında nüfuzundan istifadə edərək Bizansın rəsmi əqidəsinə zidd olan monofizitliyin Suriyada və Qəssanilər arasında yayılmasına şərait yaratmasını ondan xahiş etmiş və buna nail olmuşdur [53, s.41]. Monofizitlər İsanın yalnız ilahi təbiətinə inanırdılar. Bu isə xalkedonluq ehkamlarını qəbul etmiş İmperator Yustinianın mövqeyinə qarşı idi. Xalkedon dini yığıncağından sonra İsanın iki təbiətə – ilahi və bəşəri təbiətə malik olduğu elan edilmişdi. Monofizitliyin dini və düşüncə mərkəzi IV yüzillik və V əsrin ilk yarısında Suriyadakı Antioxiya idi. Yeri gəlmişkən qeyd edək ki, IV–V əsrlərdə Alban kilsəsi də Roma kilsəsindən asılı idi. Alban ruhanilərinin başçısı özünün yepiskop mənsəbini təsdiq etmək üçün Qüdsə, Romaya və ya Qeysəriyyəyə getməli olurdu. 506-cı ildə Dvin məclisində Alban kilsəsi də monofizitliyi qəbul edərək diofizit Bizans kilsəsindən ayrıldı. Din və məzhəb amili Bizans və Sasani imperiyalarının bir-biri ilə mübarizəsində əsas təsir alətlərindən idi. Hər iki dövlət tabeliyində olan kiçik dövlətlərdə nüfuzlarını gücləndirmək üçün bundan məharətlə istifadə edirdilər. Ona görə də Bizansın rəqibi olan Sasanilər tabeliklərindəki Qafqaz ölkələrində monofizitliyin möhkəmlənməsi üçün əllərindən gələni etməyə başladılar [1, s.113].

Əl-Haris dövrünün nüfuzlu hökmdarlarından idi. Pseudo-Dionysius xronikasında onun adı "Yer üzünün hökmdarları" kimi qeyd edilən Xosrov Ənuşirəvan, Yustinian və Əbrəhə ilə bir sırada çəkilir [12, s.143]. Bizans imperatoru Qəssani hökmdarı əl-Harisin nüfuzundan istifadə edərək özünə yaxın digər vassal ərəb dövlətlərində yaranmış problemləri yoluna qoymağa çalışırdı. Ləxmilər tərəfindən qətlə yetirilmiş Kində hökmdarı əl-Haris bin Əmrin (şair İmrul-Qeysin babası) intiqamını almaq məqsədilə Ləxmi hökmdarı əl-Münzirə qarşı müharibə edir və onu qətlə yetirir.

Bizansla Qəssanilər arasında münasibətlər xüsusi müqavilə ilə tənzimlənirdi. Buna əsasən Qəssanilər illik maddi yardım alır, əvəzində isə Bizans ordusuna əsgəri kontingent göndərirdilər. Bizans Qəssanilər vasitəsilə özünün sərhəd məntəqələrinə bəzi ərəb qəbilələrinin dağıdıcı hücumlarının qarşısını almaq məqsədini güdürdü. Eyni zamanda, bu, Bizans imperatorlarının öz dövlətlərinin cənub sərhədlərini qonşu ərəb dövlətlərini himayə edən Sasanilərin basqınlarından qorumaq üçün gördükləri tədbirlərdən biri idi.

Bizans imperatorları öz sərhədlərini müxtəlif qəbilələrin hücumlarından qorumaq üçün hətta düşmənlərini də pulla ələ almaq siyasəti yürüdürdülər. Bizans-ərəb əlaqələrinin tarixi barədə müfəssəl tədqiqatların müəllifi İrfan Şahid qeyd edir ki, İmperator Yustinian ölkəsinin Şam tərəfdəki sərhədlərinə basqın etməmək üçün Ləxmi hökmdarı əl-Münzirə 100 sentenarium qızıl pul vermişdi [18, s.278]. Tarixi mənbələrdən məlum olur ki, Bizansın bu siyasəti Qafqazda da müəyyən müddət uğur qazanmışdı. Hələ Yustiniandan qabaq, 452-ci ildə Bizans Alan keçidindən sərhədlərinə basqınların qarşısını almaq üçün Sasanilərlə müqavilə bağlamış və onlara ildə müəyyən qədər qızıl verməyi öhdəsinə götürmüşdü [1, s.116].

Tarixçi İbrahim Mumayizin fikrincə, Bizans–Qəssani müttəfiqliyi Sasani-meyilli Ləxmilərə qarşı hərbi cəbhə olmaqla yanaşı, həm də onlar əleyhinə dini alyans idi. Bu əlaqələr əl-Harisin ölümündən sonra hakimiyyətə gəlmiş oğlu əl-Münzir (569-582) tərəfindən də davam etdirilmişdi. Monofizitliyə sadiq qalan əl-Münzir Konstantinopolda səfərdə olarkən imperatordan ölkəsinə memarlar və ustalar göndərməsini xahiş etmişdi. Bizansdan gələn memarlar Qəssanilər üçün əl-Bürc sarayını tikmişlər [13, s.39; 45, s.415]. Yuxarıda qeyd etdiyimiz kimi, Bizans və Sasanilər nüfuzlarını qorumaq və genişləndirmək üçün din amilinə çox əhəmiyyət verirdilər. Sasani hökmdarı II Yəzdigərdin (438-457) xristianlığın ləğvi və zərdüştiliyin məcburi qəbul edilməsi haqqında imzaladığı fərmana əsasən, bu məqsədlə Qafqaza 700 maq göndərilmiş, başı Atilla ilə mübarizəyə qarışmış Bizans buna mane ola bilməmişdi [1, s.114].

Əl-Münzirin hakimiyyət illərinin sonunda Qəssanilərlə Bizans arasında əlaqələr pisləşməyə başlayır. Əl-Münzirin öz hərbi-siyasi hərəkətlərində müstəqilliyə can atması Bizansın səbir kasasını daşırır və Qəssanilərə yardım kəsilir. 582-ci ildə Bizans imperatoru Tiberiusun hakimiyyəti dövründə əl-Münzir dəvət olunduğu Havarində həbs olunur və ev dustağı edilir. İmperator Mavrikinin dövründə isə ailəsi ilə birlikdə Siciliyaya sürgün edilir. Eyni taleyi oğlu, sonuncu Qəssani hökmdarı əl-Numan da yaşayır [13, s.39; 24, s.154]. Bununla Şərqi Fələstində, İordan çayı ətrafında və Suriya səhrası ilə qonşu rayonlarda yerləşən Qəssanilər dövləti süqut edir [25, s.213-214].

Bundan sonra, təxminən 584-cü ildə Qəssanilər pərən-pərən düşürlər. Suriyalı Mixailin və İbn əl-İbrinin qeyd etdiyinə görə, əl-Numanın həbsindən sonra Qəssanilər 14 dəstəyə bölünərək Ərəbistan yarımadasına səpələnirlər [13, s.40].

Qəssani dövlətinin son dövrləri mənbələrdə çox az işıqlandırılıb. Əksər tədqiqatçılar hesab edirlər ki, Qəssanilər dövlətinin son parçaları da Sasanilərin 614-cü ildə hücumu nəticəsində süqut edir [5, s.354; 15, s.80]. Lakin bəzi ərəb mənbələri İslam fəthləri ərəfəsində və başlanğıcında Qəssanilər sülaləsinin bir neçə nümayəndəsinin, o cümlədən Cəbələ ibn əl-Əyhəmin adını Bizans ərəblərinin hökmdarı kimi çəkirlər [28, s.185]. Buna əsaslanaraq tarixçilər Bizans–Sasani müharibəsinin bitməsindən sonra Qəssanilər hakimiyyətinin qısa müddət ərzində İmperator İrakli tərəfindən bərpa edildiyini bildirirlər [5, s.354]. Suriya ərazilərinin müsəlmanlar tərəfindən fəthindən sonra onların axırıncı nümayəndələrinin bir qrupu Anadoluda məskunlaşır, bir qrupu isə İslamı qəbul edərək ərəb ordularının tərkibinə qatılır. Yəməndə orta əsrlərdə (1230-1451) dövlət qurmuş oğuz əsilli Rəsuliləri "ərəbləşdirmək" və yerli əhali arasında nüfuzunu artırmaq üçün bəzi mənbələr onların guya Cəbələ bin əl-Əyhəmin Türkmanlar ölkəsinə gedərək orada məskunlaşmış və "türkləşmiş" oğlunun və qəbiləsinin üzvlərinin nəslindən gəldiklərini qeyd edirlər [49, s.27]. Sırf siyasi məqsədlə ortaya atılmış bu rəvayətin özü Qəssanilərin ərəb tarixində, fikrində nə qədər əhəmiyyətli rol oynadığını göstərir.

Qəssanilər dövründə tabeliklərində olan ərazilərdə memarlıq, sənətkarlıq, incəsənət inkişaf etmişdi. İndiki İordaniya ərazisində Madaba regionunda Nitldə üzə çıxmış Qəssani kilsə kompleksi İslamaqədərki dövrdə yarımadanın bir çox ərazisində bu inkişafın göstəricisi ola bilər. İrfan Şahidin fikrincə, Şamın cənubunda tapılmış bu kompleks ilk Qəssani ərəb abidəsidir. Qastalda üzə çıxmış başqa abidənin ərəb Qəssanilərə mənsubluğu barədə şübhələr olsa da, Nitldəki tikili barədə bunu demək olmaz. Əvvəlkindən fərqli olaraq, bu tapıntıda qorunub saxlanmış yazılar vardır. Digər Qəssani abidələrinə Dumeyrdə qülləni, Qasr əl-Hayr əl-Ğarbidə monastırı,

Rusafada (Sergiopolis) praetoriumu [19, s.285-292] misal göstərmək olar.

Qəssani hökmdarları şeirə, ədəbiyyata yüksək qiymət verirdilər. Yunan imperatoru Yustinianın saray tarixçisi, Qəssani tarixi ilə bağlı qiymətli məlumatlar verən Prokopi dilimizə "Sirli tarix" kimi tərcümə edilən əsərində Qəssanilərin ərəb poeziyasının himayədarları olduqlarını qeyd edir [20, s.80]. Onların saraylarında şeir məclisləri qurular, şairlər mədhiyyə deyərək əmr sahiblərinin səxavətindən yararlanardılar. Məşhur Cahiliyyət şairlərindən Nabiğə əz-Zubyani, Ləbid bin Rəbiə, Həssan bin Sabit və başqaları öz şeirlərində Qəssaniləri mədh etmişlər. Hətta əl-Cuməhi yaradıcılığının bir hissəsini İslam dövründə davam etdirmiş Həssan bin Sabitin ən gözəl şeirlərini Həssani hökmdarlarına yazdığını da qeyd edir [43, s.181].

**Ləxmilər dövləti.** Ləxmilər də, Qəssanilər kimi, Cənubi Ərəbistan qəbilələrindən sayılırdı [46, s.117]. Mərəb bəndinin dağılmasından sonra yurdlarını tərk edərək Fərat çayının qərbindəki ərazilərdə məskunlaşmış Ləxm qəbiləsi mərkəzi Hirə olan kiçik dövlət qurmuşdu. Bu dövlətin hökmdarlarından bir çoxunun adı əl-Münzir olduğuna görə tarixçilər onu Münzirilər (ərəbcə əl-Mənazirə) də adlandırırlar [59, s.203]. İslamdan qabaq təxminən üç əsr mövcud olmuş bu dövlət ərəb tarixində, mədəniyyətində əhəmiyyətli rol oynamışdır. Rəvayətlərə görə, sülalənin əsasını III əsrdə Əmr bin Abdi bin Nasr bin Rabia bin Ləxm qoymuşdur [14, s.40; 7, s.633]. Ləxmilər Hirədə məskunlaşaraq müxtəlif qəbilələrdən təşkil olunmuş bir cəmiyyət formalaşdırmışdılar. Ləxmilərlə yanaşı başqa ərəb qəbilələrinin nümayəndələri, qonşuluqda isə xristianlar, nəbatilər, akkadlar və aramilər yaşayırdı.

Ləxmilər Sasanilərin vassalı idilər. Hirə bir neçə səbəbə görə Sasanilərin diqqət mərkəzində idi. Şəhərin bir tərəfdən hərbi-strateji mövqeyi, sağlam və mülayim iqlimi [45, s.158], digər tərəfdən isə ticarət-karvan və hərbi çay yolunun üzərində olması onun əhəmiyyətini daha da artırırdı. Bu yol Bizansın şərq sərhədlərinə doğru uzanırdı. Münzirilərin karvan yolları üzərində yerləşməsi bu əraziləri mühüm ticarət mərkəzinə çevirmiş, oranın çiçəklənməsinə səbəb olmuşdu.

Sasanilər Hirənin iqtisadi, hərbi-strateji əhəmiyyətini nəzərə alaraq Münziriləri möhkəmləndirməyə çalışırdılar. Onlar Münzirilərdən bədəvilərin hücumlarından qorunmaq üçün, eləcə də Bizansa və onun müttəfiqlərinə qarşı müharibədə istifadə edirdilər. Hirəlilərin fərqli xristian məzhəbinə etiqad etmələri də düşmən Bizansa qarşı cəbhə quran Sasanilərin işinə yarayırdı. Qeyd edək ki, Ləxmilərin paytaxtı Hirə əhalisi əsasən xristian nestorian məzhəbində idi. Hakim sülalə, demək olar ki, bütpərəst olaraq qalmışdı [14, s.49]. İdeoloji baxımdan Bizansın rəsmi xristian məzhəbinə qarşı olan və küfr sayılan nestorianlıq Sasanilərdə kilsənin rəsmi dini idi.

Tarixi mənbələr Ləxmilər dövlətinin IV əsrdə fəaliyyəti barədə az məlumatla kifayətlənir. Namara yazısında "ərəblərin hökmdarı" adlandırılan ikinci Ləxmi hökmdarı İmrul-Qeysin 328-ci ildə romalılarla döyüşdə öldürülməsindən sonra dövlətin təxminən bir əsrlik tarixi qaranlığa qərq olur [7, s.633]. Yunan və Suriya mənbələri Ləxmilər dövlətində V əsrdə hakimiyyətdə olmuş üç hökmdarın adını qeyd edirlər. Ləxmi hökmdarı I əl-Numanın adı tikdirdiyi məşhur Xavərnəq qəsri ilə birlikdə çəkilir. Sasani şahı I Yəzdigərdin istəyi ilə [14, s.40] təxminən 400-cü ildə şahın oğlu Bəhram Gur üçün Hirə yaxınlığında bina edilmiş bu qəsr öz əzəməti və gözəlliyi ilə ərəb xilafəti dövründə də şairlərin dillər əzbəri olmuşdur. Dahi Azərbaycan şairləri Nizami Gəncəvi, Xaqani Şirvani əsərlərində bu qəsrin təsvirini vermiş, Ləxmi hökmdarı əl-Numan tərəfindən tikdirildiyini qeyd etmişlər.

Əl-Münzir bin Məus-Səmanın hakimiyyət illəri (514-554) Ləxmilərin çətin dövrlərinə düşür. Hökmranlığının ilk illərində əl-Münzirlə Sasani şahı Qubadın münasibətlərinin pisləşməsi Ləxmi başçısının taxtdan uzaqlaşdırılması ilə nəticələnir. İbn Quteybə bunun səbəbini Sasanilərin yeni din siyasəti ilə bağlayaraq bildirir ki, Qubad imperiyanın yeni rəsmi dini elan etdiyi məzdəkiliyi Münzirilərə qəbul etdirə bilmədiyi üçün Hirəni Kində hökmdarı əl-Haris bin Əmrin (şair İmrul-Qeysin babası) tabeliyinə verir. Lakin çox keçmədən Qubadın ölümü və yerinə məzdəkiliyə nifrət edən Kisra Ənuşirəvanın keçməsindən sonra əl-Münzir Hirəni geri qaytarır. Tərəflər arasında baş vermiş müharibə nəticəsində Kində dövləti parçalanır.

Mənbələrin məlumatına görə, əl-Münzir Qəssanilərə və Bizansa, eləcə də təğlib və tayy qəbilələrinə qarşı müharibələr aparmış, əksəriyyətində də qalib gəlmişdir. Onun adı ərəblər arasında iki tarixi hadisə ilə – Nəim günü və Bus günü ilə yadda qalıb. Hirə onun dövründə şeir, sənət mərkəzinə çevrilmişdi. Onun sarayında şeir məclisləri qurular, şairlər himayə olunardı. Hirə hökmdarları şeirlərdə, əxbar və rəvayətlərdə, ərəb hekayələrində tez-tez qeyd edilir. Müstəbid hökmdar olduğuna görə dövrünün məşhur şairlərindən Tarafa bin əl-Abd, Mütələmmis və başqaları ona həcvlər yazmışlar.

Qəssanilərlə döyüşlərin birində həlak olan əl-Münziri hakimiyyətdə oğlu Əmr bin Hind (554-569) əvəz edir. Əmr öldürüldükdən (rəvayətə görə, şair Əmr bin Külsüm tərəfindən qətlə yetirilmişdir) sonra hakimiyyətə qardaşı Kabus keçir. 570-ci ildə Ləxmilərlə Qəssani hökmdarı əl-Münzirin qoşunları arasında sonuncunun qələbəsi ilə nəticələnən döyüş olur. Ləxmilərin sonuncu hökmdarı IV əl-Münzirin oğlu əl-Numanın (580-602) Sasani şahı Pərvizlə münasibətləri pisləçir. Müstəqilliyə can atan əl-Numanın mühasirəyə salınaraq öldürülməsi ilə Ləxmilərin sonu çatır.

**Kində dövləti.** Ərəbistan yarımadasında İslamaqədərki dövrdə mövcud olmuş ərəb dövlətlərindən biri də Kindədir. Kində adına ilk dəfə Cənubi Ərəbistanda – müxtəlif Misnəd, o cümlədən Əbrəhə kitabələrində rast gəlinir [9, s.33; 45, s.315].

Orta əsr ərəb mənbələrinin əksəriyyətində Kində qəbiləsinin Ərəbistanın şimalına köçündən qabaq cənubda, əsasən Yəmənin Hadramaut bölgəsində məskunlaşdığı bildirilir [47, s.472; 60, s.85].

Tarixi mənbələr kindəlilərin müxtəlif vaxtlarda mərkəzləri Dəmmun, Ğamr zi Kində, Qaryat əl-Fau olan dövlətlərindən xəbər verir [11, s.71; 9, s.34, 36; 3, s.16].

İndiki Səudiyyə Ərəbistanının ərazisində yerləşən Qaryat əl-Fau ətrafında yaranmış Kində dövləti mövcud olduğu dövrdə Mərkəzi və Şimali Ərəbistanda müxtəlif qəbilələri öz hakimiyyəti altında birləşdirməyi bacarmış, bir növ, qəbilələrin birliyini formalaşdırmışdır. B.Levisin qeyd etdiyi kimi, vahələrdə üstünlüyü ələ almış müxtəlif qəbilə klanlarını öz hakimiyyətinə tabe edərək “səhra imperiyası” yaratmışdır. Belə “imperiya”ların ömrü əsasən qısa olur, çünki ambisiyaları, əzm və özünəinamları ilə yaxın qəbilələrin loyallığını qazanan fərdlərin bacarıqlarından tam asılı olurlar [10, s.26]. Burada geosiyasi və iqtisadi vəziyyətin diktə etdiyi amilləri də unutmaq olmaz. Bunu ayrı-ayrı Kində hökmdarlarının zamanında dövlətin vəziyyətini qiymətləndirərkən görürük. Hökmdar Hücr Akilul-Mirar müxtəlif qəbilələri tabe edərək hakimiyyətinin ərazisini genişləndirmişdisə, onun nəticəsi şair İmrul-Qeysin atası Hücrün dövründə qəbilələrin üsyanı baş vermiş, Kində zəifləmişdir.

Yəmən Himyəri hökmdarının anadan bir qardaşı Hücr bin Əmr (ləqəbi Akilul-Mirar) və sülaləsi şimal qəbilələri arasında yerləşdikdən sonra Hücr Akilul-Mirar Batn Aqil məntəqəsini dövlətin mərkəzi seçir [52, s.45]. Kində dövləti buradan

genişlənməyə və nüfuzunu gücləndirməyə başlamış, İmrul-Qeysin babası əl-Haris bin Əmrin dövründə çiçəklənmiş, Hirəni də öz ərazisinə qatmışdır. Akilul-Mirar (430-450/ 442-450) Kindənin yeni dövlətinin banisidir. O, yeganə Kində hökmdarıdır ki, adı tarixçilərə məlum olan yazılı kitabədə (Nufud Müsəmmə adlı vadidə yerləşən əl-Qara dağındakı qayaüstü yazıda) hökmdar kimi qeyd edilir. Hücr bin Əmr Akilul-Mirarın hakimiyyəti ilə əsası qoyulan sonuncu Kində dövlətinin əraziləri artaraq Ləxmilərin mərkəzi Hirəyə qədər uzanırdı [45, s.322]. Onun Akilul-Mirar adlanması haqqında maraqlı rəvayətlər vardır. Deyilənə görə, "həvədiş" olan Hücrün yuxarı ön dişləri o qədər böyük idi ki, üst dodağını qabardırmış. Ona görə də arvadı Hücrü mirar adlı acı bitkini yedikdən sonra ağızı əyilmiş dəvəyə oxşadırmış [38, s.171; 39, s.74; 31, s.60]. Tarixçilərin nəql etdiyi başqa rəvayətə görə isə, əl-Haris əl-Qəssani Hücrün qəbiləsinə hücum edib qəbilə üzvləri ilə birlikdə arvadı (cariyəsi) Hindi əsir aparır. Yolda Hinddən Hücr barədə fikrini soruşur. Hind cavabında deyir ki, Hücr mirar yemiş dəvə kimi dəhşətdən ağzı açıq şəkildə tezliklə onun dalınca gələcək. Belə də olur [31, s.60; 45, s.322].

Əmr (442-490) Hücr Akilul-Mirarın böyük oğludur. Uzun müddət hakimiyyətdə qalsa da, fəaliyyəti barədə məlumatlar, demək olar ki, azdır [52, s.47]. Ləqəbi əl-Maqsur olub. O, atasından qalan dövlətin ərazisini genişləndirmədiyinə, əlində olanla kifayətləndiyi üçün [32, s.215], ya da Yəməməni qardaşı Caun ləqəbli Müaviyəyə güzəştə getdiyi üçün belə adlanıb [33, s.168]. Görünür ki, o, atası kimi güclü avtoritetə malik olmamışdır. Cavad Əli onun hökmdar deyil, Kindənin ağası adlandırıldığını yazır [45, s.328]. Rəvayətə görə, Əmr Himyəri Tübbə hökmdarları ilə qohum idi. Təbərinin bildirdiyinə görə, Əmr bin Hücrün Tübbə hökmdarının qardaşı Həssanın qızı ilə evliliyindən sonrakı Kində hökmdarı əl-Haris bin Əmr doğulmuşdur. Həmçinin Hirə hökmdarı əl-Asvad bin əl-Münzir Əmr bin Hücrün başqa qızı ilə evli idi. Bu evlilikdən də Hirə hökmdarı əl-Numan bin əl-Asvad dünyaya gəlmişdir. Bu yaxınlığa görə onun Qəssanilərlə münasibəti yaxşı deyildi [45, s.328].

Kində dövlətinin ərazisi əl-Haris bin Əmrin hakimiyyəti illərində (495-524/490-528) genişlənərək Nəcd, Yəmamə, Bəkr bin Vail torpaqlarını və Hirə dövlətinin ərazilərini əhatə edib. Hakimiyyət illəri barədə fərqli fikirlər səsləndirilir. Onun 60 və ya 33 (38) il hakimiyyətdə olduğu deyilir [57, s.609]. Sasani və Bizans imperiyaları, eləcə də ətraf ərəb dövlətləri ilə əlaqələri sayəsində əl-Haris bin Əmr salnaməçilərin diqqətini daha çox çəkib. Bizans üzləşdiyi ağır vəziyyətdən çıxış edərək, güclənməkdə olan Kində hökmdarı əl-Harislə sülh müqaviləsi bağlamış və bununla da Sasanilərlə mübarizəsində Kindənin dəstəyini almışdı [54, s.89]. Əl-Harisin hakimiyyət illəri Sasani hökmdarı Qubadın (488-531) məzdəkiliyi rəsmi din kimi qəbul etdiyi dövrə təsadüf edir. Mənbələrin bildirdiyinə görə, Hirə hökmdarı əl-Münzir Qubadın bu dinə dəvətini rədd etdiyi üçün hakimiyyətdən qovulmuş, məzdəkiliyi qəbul etmiş əl-Haris bin Əmr Qubadın dəstəyi ilə Hirəni ələ keçirmişdir [36, s.115]. Əl-Haris bin Əmrin Ləxmi torpaqlarına yiyələnməsi özlüyündə cürətli addım olmaqla yanaşı, həm də riskli idi və bunun acı nəticələri özünü çox gözlətmədi. Ləxmilərlə Sasanilərin əlaqələri dərin köklərə malik idi. Bu baxımdan müvəqqəti yaranmış ixtilafdan istifadə etməklə bunu pozmaq olmazdı. 531-ci ildə Qubad qətl edildi və şah elan olunan Kisra Ənuşirəvan əl-Münziri yenidən Hirəyə qaytardı. Ənuşirəvanın dəstəyini alan əl-Münzir əl-Harisdən intiqam almaq həvəsinə düşdü və onu öldürdü. Beləliklə, atası Numan əl-Əkbərin qətlinin qisasını aldı [45, s.341-342].

Bildirilir ki, əl-Haris bin Əmr 40 il davam etmiş Bəsus müharibəsi nəticəsində bəkr və təğlib qəbilələrinin zəifləməsindən istifadə edərək onların malik

olduqları əraziləri də ələ keçirmişdir. Bu zaman hər iki qəbilə arasında sülh bağlanmasına çalışmış, öz təsirini gücləndirməkdən ötrü təğlib qəbiləsi ilə qohum olmaq taktikasından da istifadə etmişdir. Oğlu Hücrə (şair İmrul-Qeysin atası) məşhur şair Mühəlhilin bacısı Fatimə bint Rəbiəni almışdır [57, s.609]. Məqsədi Ləxmilərə və Qəssanilərə qarşı müharibələrində bu qəbilələrin gücündən istifadə etmək idi.

Məxəzlərin verdiyi məlumata görə, əl-Harisin hakimiyyəti dövründə tabeliyində olan qəbilələr arasında fitnə düşür və onlar öz nümayəndələrini əl-Harisin yanına göndərib ondan xahiş edirlər ki, Kində hökmdarı oğullarını onlara hökmdar təyin etsin. O, oğlu Hücrü Bəni Əsəd və Qətəfana, Şürəhbili Bəkr bin Vailə, Bəni Hənzələyə, Bəni Darimə və Rubaba, Məad Yəkrəbi Bəni Təğlibə, Nimr bin Qasitə, Səd bin Zeyd Mənata və s. hökmdar təyin etdi. Qəbilələrin adları bəzi rəvayətlərdə müxtəlif şəkildə verilsə də [61, s.189; 31, s.62; 32, s.435], bu rəvayətlərdən məlum olur ki, Kində dövləti artıq əl-Harisin dövründə parçalanmış vəziyyətə düşmüşdü, ölkədə çoxhakimiyyətlilik hökm sürürdü. Bu da kindəlilərin sonrakı taleyində öz sözünü dedi. Ləxmi hökmdarı əl-Münzir tərəfindən dəstəklənən qəbilələr əl-Harisin oğullarına qarşı üsyana qalxdılar. Əl-Münzir qardaşlar arasındakı ədavəti qızışdırıb istəyinə nail oldu. Şürəhbil "əl-Kuləbul-avval" adlanan hadisədə öldürüldü [35, s.78; 45, s.353-354]. Digər qardaş Sələmə "Uvaratul-avval günü" kimi tarixə düşmüş hadisədə Bəkr bin Vail qəbiləsinn adamları tərəfindən qətlə yetirildi [32, s. 438-437].

Əl-Harisin ölümündən sonra hakimiyyətə onun böyük oğlu Hücr bin əl-Haris gəldi. Bu dövrdə Kində dövlətinin Ləxmi hökmdarı əl-Münzir bin Maus-Səma ilə münasibətlərində gərginlik davam edirdi. Kindəyə vaxtilə tabe olan bəzi qəbilələr də əl-Harisin yoxluğundan istifadə edib üsyana qalxmışdılar. Əxbarlardan məlum olur ki, Bəni Əsəd qəbiləsi illik vergi verməkdən imtina etmişdi. İmrul-Qeysin atası Hücr hakimiyyətdə çox qala bilmədi və Bəni Əsəd tərəfindən qətl edildi [36, s.115]. Rəvayətlərdə deyilir ki, Hücr vergi verməkdən boyun qaçıran qəbiləni əfv etsə də, acı taleyindən qaça bilmədi. Onun İlba bin əl-Haris əl-Əsədi adında bir şəxs tərəfindən öldürüldüyü qeyd edilir [36, s.115].

Kində dövlətinin son dövrləri şahzadə və şair İmrul-Qeysin həyatı ilə sıx bağlı olub. Mənbələrdə onun Bizans imperatoru Yustinianla görüşə getməsi və Kindənin nüfuzunu bərpa etmək üçün ondan yardım istəməsi qeyd olunur. Kində dövlətinin bu dövrü İmrul-Qeysin tərcümeyi-halı ilə bağlı olduğu üçün əvvəlki məqaləmizdə bu barədə geniş məlumat verdiyimizə görə burada qısa yazmaqla kifayətlənirik. Yalnız onu deyə bilərik ki, atası Hücr öldükdən sonra dağılmağa başlamış dövlətin nüfuzunu və bütövlüyünü qaytarmaq üçün qısa həyatı boyu göstərdiyi cəhdlərə baxmayaraq, şahzadə İmrul-Qeys mürəkkəb siyasi və hərbi vəziyyətin içində Kindənin hökmdarlıq taxtında istiqrar tapa bilməsə də, şeirə gətirdiyi yeniliklər onu poeziya mülkünün sərvərinə çevirmişdir. İmrul-Qeys şeirində ərəbin çırpıntılarını hiss etməmək olmur. Onun Bizans imperatorunun yanına gedərkən dostuna dediyi sözlər şairin həyat amalının qısa xronikasını göstərir.

İbrahim Mumayiz Kində dövlətinin əhəmiyyətinin artmasında V-VI əsrlərdə ortaya çıxmış geosiyasi faktora da diqqəti çəkir. Qeyd edir ki, Suriyada hakimiyyətdə olan Bizansmeyilli Qəssani sülaləsinə və eyni zamanda Cənubi Mesopotamiyada yerləşən Sasanimeyilli Ləxmi sülaləsinə münasibətdə Kindənin əhəmiyyəti böyük idi. Buna görə də Bizans Kində taxt-tacına namizəd İmrul-Qeysi dəstəkləməliydi. Kindənin gələcək hökmdarı kimi İmrul-Qeys Bizansın düşməni Sasanilərə qarşı ənənəvi ərəb müttəfiqi olan, lakin çətin yola gələn Qəssaniləri əvəz edə bilərdi. Eləcə də İmrul-Qeysin başçılıq etdiyi Bizansmeyilli Kində Hirədə Sasanilərin ərəb

müttəfiqi Ləxmi dövlətinə qarşı effektiv ciddi təhlükə yarada bilərdi [13, s.30-31]. Bizans güclü Kində dövlətini Sasani imperiyası ilə öz arasında bufer zona kimi görürdü və ondan Hirəni ələ keçirməklə gələcəkdə Sasani ərazilərinin dərinliklərinə soxulmaq, orada mövcud olan nəsturiliyi məhv etmək üçün platsdarm kimi istifadə edə bilərdi.

Müstəqil Kində dövləti az müddət ərzində mövcud olsa da, tədqiqatçılar onun tarixdə oynadığı rolu yüksək qiymətləndirirlər. Kində dövlətinin paytaxtlarından biri olmuş Qaryat əl-Fauda arxeoloji qazıntılar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri, inzibati tikililərin qalıqları, o cümlədən orada zərb edilmiş sikkələr (onların üzərində Kindənin ibadət etdiyi Kəhl bütünün rəsmi həkk olunub) Kindənin nüfuzundan və iqtisadi inkişafından xəbər verir. Səudiyyə Ərəbistanı Krallığının paytaxtı ər-Riyaddan 700 km cənub-qərbdə, Nəcran şəhərindən 180 km şimal-şərqdə yerləşən bu qədim yaşayış məskəni Ərəbistan yarımadasında o zaman mövcud olmuş şəhərlərdən böyük idi. Şəhərin ərazisinin uzunluğu 2, eni 1 kilometrdən çox idi [3, s.17]. Bu məntəqə Məin, Qətəban, Hadramaut, Səba, Himyər ölkələrindən Nəcrana, Yəməməyə, şərqdən Körfəzə, şimaldan İkiçayarası (ər-Rafideyn) vadisinə, Şama gedən karvan yollarının üzərində yerləşirdi [3, s.16].

Qeyd edək ki, Qaryat əl-Fau həm də tikililəri ilə birlikdə İslamaqədərki ərəb şəhərlərinin nümunəsi hesab edilə bilər. Üzə çıxarılan binaların qalıqları onu deməyə əsas verir ki, orada bazar, saray, məbəd, məqbərə, yaşayış evləri mövcud olub [3, s.22]. Arxeoloqlar buna əsasən İslamdanqabaqkı ərəb şəhərinin quruluşunu müəyyən etməyə çalışıblar. Tədqiqatçıların fikrincə, insan cəmiyyətinin üç əsas fəaliyyətini – sosial, siyasi və dini sahələri əks etdirən bazar, saray və məbədin şəhərin mərkəzində tikilməsi ənənəsi İslam dövründə yaşayış məskənlərinin salınmasında da davam etdirilib. Qeyd edilir ki, Məhəmməd peyğəmbər (s.a.s.) Mədinəyə hicrət etdikdən sonra evinin yanında məscid tikdirmiş, ümmətinin işlərini buradan idarə etməyə başlamışdı. Bazarı da məscidin qərb tərəfində təşkil etmişdi. Müsəlmanlar Kufə, Bəsrə və Fustat (Qahirə) şəhərini salanda da Kindənin şəhərsalma ənənəsindən yararlanmışlar. Məscid, Dar əl-İmara və bazar şəhərlərin mərkəzində yerləşdirilmişdi [3, s.22].

Zaman-zaman üzə çıxarılan bu tapıntılar Cahiliyyət dövrü ilə bağlı bəzi yanlış fikirlərə (bədəvilik və s.) yenidən baxmağa imkan yaradır. Kində dövlətçilik ənənəsinin müəyyən təsirləri İslam dövründə də bir müddət özünü göstərmişdir. Heç də təsadüfi deyildir ki, şərqşünas B.Levis bu dövləti sonralar yaranacaq ərəb xilafətinin prototipi, ilk nümunəsi hesab edir, İslamın yayılmasını bir çox tərəfdən Kindənin tərəqqisi və ərazilərini genişləndirməsinə bənzədirdi [3, s.26]. Mumayizin fikrincə, İslam Kindənin dövlət quruculuğu və qəbilələri, insanları birləşdirmə təcrübəsini öyrənmiş və tətbiq etmişdi [12, s.27].

Kindəlilərin müxtəlif qəbilələrə başçılıq etmələri, himyərilərlə qohumluq əlaqələri, "hökmdarlar qəbiləsi" (ərəbcə: *kindətul-muluk*) kimi tanınması onun nüfuzunu gücləndirmişdi. Mənbələr qeyd edir ki, Kində hökmdarları Nəcddəki, Hicazdakı qəbilələr, Məad qəbiləsi ilə qohumluq və müttəfiqlik münasibətləri ilə bağlı idilər. Əsil-nəcabət, nəsil ərəblər üçün fəxr mənbəyi, başqasının qarşısında üstünlüyünü göstərmək vasitəsi və qürur imkanı idi. Tanınmamış nəsillə qohumluq ərəbi rəqiblərinin həcv və tənqid obyektinə çevirirdi. Buna görə də cəngavərlər və qəbilə başçıları oğulları qarşısında ən nüfuzlu qəbilədən ən yaxşı arvadlar seçmələri ilə və onlar üçün də qürur duyacaqları nəslin, nəsəbin əsasını qoymaları ilə fəxr edirdilər. Ona görə də nüfuzlu, tanınmış qəbilələrlə qohum olmaq üçün elçi düşülən qıza

veriləcək mehrin (süd pulu, mehriyyə) məbləği də hər iki tərəfin cəmiyyətdə nüfuzunun göstəricisi sayılırdı. Ərəb mənbələrinin bildirdiyinə görə, Kində qəbiləsi ərəb qəbilələri arasında ən çox mehr tələb edən qəbilə idi. Mənbələr göstərir ki, bu qəbilənin qızına elçi düşən kəs ən azı 100 dəvəsindən keçməli idi. Hətta bir gəlin üçün min dəvə mehrin verildiyi də qeyd edilir [55, s.2794/5].

"Kində mehri" (*"məhru kindətə"*) ifadəsi bununla bağlı idi. İslam gələndən sonra izdivac məsələlərini sadələşdirmiş, mehrin məbləğini azaltmış, onu fəxr və həcv obyekti olmaqdan çıxarmağa çalışmışdır. İbn Quteybənin İslam peyğəmbərinə aid etdiyi hədisdə "Kində mehri" tamamilə aradan çıxarılmasa da, onun məbləğinin azaldılması istənilir: "*Allahım, Qəssani dövləti məhv olsun və Kində mehrinin miqdarı azalsın*" [37, s.71]. Bunu böyük məbləğdə mehr almağa öyrəşmiş Kindənin bəzi qadınları özləri üçün çağırış kimi qəbul etmişlər. Hətta rəvayətlərdə bundan qeyzlənən bəzi kindəli qadınların peyğəmbərin vəfatına sevinərək əllərinə xına çəkdikləri və dəf çaldıqları da bildirilir [56, s.184-185].

Kindənin ərəb ədəbi dilinin formalaşması və yayılmasında rolu da qeyd edilməlidir. Şahzadə şair İmrul-Qeys siyasi cəhətdən bu dövləti bərpa edə bilməsə də, öz şeirləri ilə onu yaddaşlarda əbədi yaşatmışdır. Ərəb poeziyasına bir sıra yeniliklər gətirmiş bu şair öz yaradıcılığı ilə vahid poeziya dilinin yaranıb inkişaf etməsinə də töhfələr vermişdir. Kindənin yarımadada geniş əraziləri əhatə etməsi və müxtəlif ləhcələrdə danışan qəbilələri bir araya gətirməsi onların konsolidasiyasına və daha da yaxınlaşmasına səbəb olmuş, B.Levisin qeyd etdiyi kimi, qəbilə dialektlərindən müstəqil, bütün ərəb qəbilələrini bir ənənə, vahid şifahi mədəniyyət daxilində birləşdirən bir dilin formalaşmasına gətirib çıxarmışdır [10, s.26].

**Nəticə.** Cahiliyyət dövründə Ərəbistan yarımadasında ictimai-siyasi vəziyyətə qısaca nəzər saldıqdan sonra yekun olaraq deyə bilərik ki, İslamın yaranmasından bir neçə əsr qabaq müstəqil, vassal olmayan ərəb dövləti, demək olar ki, yox idi. IV əsrdə müstəqilliklərini saxlayan dövlətlər son əsrlərdə Şərqi Roma və Sasanilərdən çox asılı vəziyyətə düşmüşdülər. Bu baxımdan İrfan Şahid Palmiranın hərbi ağalığının şahidi olmuş III əsrlə İslamın nəşətinə şahidlik etmiş VII əsr arasındakı üç yüz ili ərəb tarixində qürub çağı adlandırır [21, s.12].

Bunu məşhur rus türkoloqu L.N.Qumilyovun irəli sürdüyü və elmi dairələrdə maraqla qarşılanmış passionarlıq nəzəriyyəsi ilə [23, s.211] izah etməyə çalışsaq, ərəblərin İslamın nəşətinə yaxın dövrədək homeostaz (landşaftla tarazlıq) vəziyyətində olduğunu demək olar. Onlar tarixi hadisələrin əsas iştirakçıları deyildilər. Bu dövrdə zəifləmiş, parçalanmış Ərəbistan müxtəlif dünyagörüşlərinin, mədəniyyətlərin təsiri altında idi. İrfan Şahidin qeyd etdiyi kimi, ərəblər böyük güclərin – Bizans, Sasanilər və Himyər dövlətlərinin arasında sıxılıb qalmışdılar. Mədəni sahədə də onlar bu üç gücün təsirində idilər. Ərəblər ruhi səyahətlərinin orta, aralıq mərhələsini yaşayırdılar [21, s.12-13]. Buna baxmayaraq, memarlıq, söz sənəti sahələrində özünəməxsus nailiyyətlər də əldə etmişdilər. Qumilyova görə, Cahiliyyət poeziyasının yarandığı VI əsr ərəblərin etnogenezində sıçrayışların şahidi olmuşdur. Təsadüfi deyildir ki, Cahiliyyət şairlərini ərəblərin passionarları hesab edən, İmrul-Qeysi bu sıçrayışın önündə görən alim [23, s.211] bədii yaradıcılığında İmrul-Qeysin həyat yoluna diqqət yetirmiş, ona ayrıca pyes də həsr etmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Azərbaycan tarixi: Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər / red. İqrar Əliyev, Bakı: "Elm", 1993. 284 s.
2. Qasımova, A. Cahiliyyət ərəblərinin əqli-mənəvi durumu, I kitab (din və mifologiya) / A.Qasımova. Bakı: "Elm", 2007, 213 s.
3. Al-Ansary A. R. Qaryat al-Fau: a portrait of pre-Islamic civilisation in Saudi Arabia. – London: Croom Helm, New York: St. Martin's Press, – 1982. – 148 p.
4. Dasi Digital Archive For The Study Of Pre-Islamic Arabian Inscriptions http://dasi.cnr.it/
5. Encyclopaedia of Islam: [in 13 vol.] / ed. B. Lewis, Ch. Pellat, J. Schacht. Leiden. E. J. Brill, – New Edition. – E. J. Brill, – vol. 2. – 1991. – 1146 p.
6. Encyclopaedia of Islam: [in 13 vol.] / ed. C.E.Bosworth. E. van Donzel, B. Lewis, Ch. Pellat. Leiden. E. J. Brill, – New Edition. – Brill, – vol. 3. – 1986
7. Encyclopaedia of Islam: [in 13 vol.] / ed. C. E. Bosworth. E. van Donzel, B. Lewis, Ch. Pellat. Leiden. E. J. Brill, – New Edition. – Brill, – vol. 5 – 1986. – 1333 p.
8. Encyclopaedia of Islam: [in 13 vol] / ed. C. E. Bosworth, E. van Donzel, B. Lewis, W. P. Heinrichs, Ch. Pellat. – New Edition. – E.J.Brill, – vol. 6 – 1991. – 1071 p.
9. Gunnar Olinder. The Kings of Kinda of the family of Ākil al-murār. – Lund: C. W. K. Gleerup. – 1927, – 119 p.
10. Lewis Bernard. The arabs in History. – Oxford [England]: Oxford University Press. – 1993. – 225 p.
11. M. D. Bukharin. Towards the earliest history of Kinda // Arab. arch. epig., – 2009 (20). – Singapore. – p. 64–80
12. Mumayiz Ibrahim. Imru' al-Qays and Byzantium // Journal of Arabic Literature, – Brill. v 2005 (vol. 36, No. 2), – pp. 135-151
13. Mumayiz Ibrahim. The Vagabond King: The Life and Poetry of Imru'ul Qays / I.Mumayiz – Amman: Jordan University Press. – 2002. – 253 p.
14. Nicholson A. Nocholson. A Literary History of the Arabs. – Curzon Press Ltd. – 1995. – England. – 506 p.
15. Philip K.Hitti. History of the Arabs. – Macmillan, – 1970. – 757 p.
16. Schiettecatte, J. and Arbach, M. The political map of Arabia and the Middle East in the third century AD revealed by a Sabaean inscription // Arab. arch. epig., – 2016 (27), – p. 176-196.

17. Shahid Irfan. Byzantium and the Arabs in the Sixth Century: [in 2 vol and 2 part] / I.Shahid. – Washington: Dumbarton Oaks Research Library and Collection, – vol.2, part I. – 2002. – 469 p.
18. Shahid Irfan. Byzantium and the Arabs in the Sixth Century: [in 2 vol and 2 part]/ I.Shahid. – Washington: Dumbarton Oaks Research Library and Collection, – vol.1, part I. –1995. –707 p.
19. Shahid Irfan. The Sixth-Century Church Complex at Nitl, Jordan. The Ghassanid Dimension // Liber Annuus, – 2001 (51), Jerusalem, – p. 285-292
20. Shahid Irfan (Kawar). Procopius on the Ghassanids // Journal of the American Oriental Society, – Apr. – Jun., 1957 (vol. 77, No. 2), pp. 79-87

21. Shahid Irfan. Byzantium and the Arabs in the Fourth Century / I.Shahid. – Washington: Dumbarton Oaks Research Library and Collection, – 2006. – 628 p.
22. The Jewish Encyclopedia: [in 12 volumes] / Chairman of the editorial board Isaak K. Funk, – New York and London, Funk and Wagnalls company, – v.2 – 1902. – 685 p.
23. Гумилёв, Л. Н. Тысячелетие вокруг Каспия. – Азернешр, – Баку, – 1991. – 312 s.
24. Кривов М. В. Последние Гассаниды между Византией и Халифатом // Византийский Временник, – 1981 (Том 42 (67)). Стр. 154-158
25. Пигулевская . – 1964. – 253 с.
**26.** Н. Арабы у границ Византии и Ирана в IV-VI вв. / Н. Пигулевская. – М. Л: “Наука”
27. Bahaeddin Ögəl. Dünden bugüne türk kültürünün gelişme çağları. – Türk dünyası araştırmalar vakfı yayınları. – 2001. İstanbul, 788 s.
28. Block Marc. Feodal Toplum. çev. Mehmet Ali Kılıçbay / Marc Block. – Ankara: Savaş yayınları. – 1983. – 628 s.
29. İslam Ensiklopedisi: [44 cilddə], – TDV. – İstanbul. – c.7. – 1993.
30. Toynbee Arnold. Tarih bilinci. – İstanbul: Bateş yayınları. – 1978. – 584 s.
31. Ziya Gökalp. Türk töresi / Gökalp Ziya. – Devlet kitapları, Güneş matbaaçılıq. – 1976. – 141 s.
32. . الاصفهاني أبو الفرج. كتاب الأغاني، تحقيق إحسان عباس، ابراهيم السعافين وبكر عباس، 25 جزء، الجزء التاسع، دار صادر، بيروت، الطبعة الثالثة، 2008. 255 ص.
33. ابن الاثير ابو الحسن. الكامل في التاريخ، 11 مجلدا. المجلد الاول، تحقيق ابي الفداء عبدالله القاضي، دار الكتب العلمية، بيروت، 1987، 626 ص.
34. ابن الكلبي ابو المنذر هشام بن محمد بن السائب . نسب معد واليمن الكبير، تحقيق د ناجي حسن، مكتبة النهضة العربية، بيروت، 1988-1408 هـ، ، 865 ص.
35. ابن خلدون. المقدمة، مطبعة دار القلم، تونس، 1984 ، 860 ص.
36. ابن عبد ربه أحمد بن محمد. العقد الفريد، تحقيق عبد المجيد الترحيني، 9 مجلدات، المجلد السادس، دار الكتب العلمية، بيروت، 1983، 378 ص.
37. ابن قتيبة الدينوري. الشعر والشعراء، تحقيق احمد محمد شاكر، جزءان، الجزء الاول، دار المعارف، القاهرة، دون تاريخ.
38. ابن قتيبة الدينوري. عيون الأخبار، 4 مجلدات، المجلد الرابع، دار الكتاب العربي، بيروت، دون تاريخ، 360 ص.
39. ابن منظور. لسان العرب، دار صادر، 15 مجلدا، المجلد الرابع، 627 ص.
40. ابو الفداء. المختصر في أخبار البشر، المطبعة الحسينية المصرية، الجزء الأول، 4 أجزاء، 155 ص
41. أحمد أمين. فجر الاسلام، مؤسسة هنداوي للتعليم والثقافة، القاهرة، 2012. 328 ص

42. البغدادي عبد القادر بن عمر. خزانة الأدب ولب لباب لسان العرب، تحقيق عبد السلام هارون، 13 مجلدا، المجلد الثالث، القاهرة، مكتبة الخانجي ، 1997، 484 ص.
43. تيودور نولدكه. أمراء غسان. نقلها الى العربية الدكنور بندلي جوزي والدكتور قسطنطين زريق، المطبعة الكاثوليكية، بيروت، 1933، 82 ص.
44. الجمحي محمد بن سلام. طبقات الشعراء، تحقيق جوزف هل، دار الكتب العلمية، بيروت – لبنان، 2001.
45. جواد علي. المفصل في تاريخ العرب قبل الاسلام. 10 أجزاء، الجزء الاول، الطبعة الثانية، 1993، 661 ص.
46. جواد علي. المفصل في تاريخ العرب قبل الاسلام. 10 أجزاء، الجزء الثالث، الطبعة الثانية، 1993، 540 ص.
47. جواد علي. المفصل في تاريخ العرب قبل الاسلام. 10 أجزاء، الجزء الرابع، الطبعة الثانية، 1993، 686 ص.
48. الحموي ياقوت بن عبد الله. معجم البلدان، 5 مجلدات، المجلد الثاني، دار صادر، بيروت، 1993، 546 ص.
49. حنا الفاخوري. الجامع في تاريخ الادب العربي ، بيروت، دار الجيل، 1986. 1083 ص
50. الخزرجي الشيخ علي بن الحسن. العقود اللؤلؤية في تاريخ الدولة الرسولية، تحقيق، تصحيح، الشيخ محمد بسيوني عسل، مكتبة الهلال، مصر، 1911، جزآن، الجزء الأول، 489 ص
51. خليل يحيى نامي. نشر نقوش سامية قديمة من جنوب بلاد العرب وشرحها. المعهد العلمي الفرنسي للآثار الشرقية، القاهرة، 1943، 135 ص.
52. ديوان الخنساء. اعتنى به وشرحه حمدو طماس، دار المعرفة، بيروت، لبنان، 2004، 128 ص.
53. سليمان بن عبد الرحمن الذييب. منطقة الرياض التاريخ السياسي والحضاري القديم. 1428 / 2007، أمانة منطقة الرياض، 174 ص.
54. شوقي ضيف. تاريخ الادب العرب 1، العصر الجاهلي. دار المعارف، د.ت، 434 ص
55. عمر فروخ. تاريخ الجاهلية. دار العلم للملايين، بيروت، 1964، 198 ص.
56. المحبي محمد الأمين بن فضل الله. ما يعول عليه في المضاف والمضاف اليه، القسم الثاني، الجزء السادس، تحقيق عبدالعزيز بن صالح العقيل، 2010، 7 اجزاء، الرياض، الطبعة الاولى، ص
57. محمد بن حبيب. كتاب المحبر، تحقيق الدكتورة إيلزه ليحتن شتيتر، حيدرآباد، دائرة المعارف العثمانية، 1942. 752 ص.
58. محمد بيومي مهران. دراسات في تاريخ العرب القديم. دار المعرفة الجامعية، 1980، الاسكندرية، 664 ص.
59. محمد مرتضى الحسيني الزبيدي . تاج العروس من جوهر القاموس. تحقيق عبد الكريم العزباوي. 5 أجزاء ، الكويت، مطبعة حكومة الكويت، الجزء الثالث، 2004، 522 ص.
60. هاشم يحيى الملاح. الوسيط في تاريخ العرب قبل الإسلام، دار الكتب العلمية، 1971، بيروت لبنان، 423 ص.
61. الهمداني الحسن بن احمد بن يعقوب. صفة جزيرة العرب. تحقيق محمد بن علي الاكوع الحوالي. مكتبة الارشاد. صنعاء، 1990، 510 ص.
62. ابن واضح احمد بن ابي يعقوب. شرح العلامة محمد صادق بحر العلوم، المكتبة الحيدرية، النجف، 1964، 3 اجزاء، الجزء الاول، 242 ص.

***Shikhali Aliyev***

**Socio-political situation of the Arabs in the pre-Islamic period**

***S u m m a r y***

We mostly get information about the pre-Islamic Arab history from Greek (Byzantine), Syrian sources, as well as from the poetic works and legends of the Islamic period. In the period of Jahiliya, relations in the Arab society with each other were regulated mainly through consanguinity between various Arab clans, formed by intra- and inter-clan relations, and in clan state formations. Relations were also built on the basis of "asabiya" (principles of the clan's advantage) This system of relationships, although somehow is similar to the concept of the ancient Turkic tribal system "torah", nevertheless is different from it. Various clans, mainly migrated from the South, created the states (kingdoms) of the Kindah, Lahmids and Gassanids in the North of the Arabian Peninsula. These kingdoms in different periods were in vassal dependence on neighboring empires – and at best in allied relations with them. The Byzantine and Sasanian empires benefited by resolving security issues of a military nature and determining the relationship between these vassal kingdoms. To preserve and expand their influence in these kingdoms, the Byzantine and Sasanian empires, along with the provision of various assistance and encouraging steps (distribution of high titles, etc.), attached great importance to the religious factor. Both empires implemented similar policy in Caucasian Albania, which existed on the territory of Azerbaijan. As noted by Irfan Shahid, at that time the Arabs were squeezed between large forces – the Byzantine, Sassanid empires and the state of Himyarites. In the cultural sphere too, they were strongly influenced by these three forces. Despite this, approximately three centuries of the pre-Islamic period were marked by the heyday of the Arabic language, architecture and poetry. The representative of the ruling Kinda family, the prince and poet Imru al-Qais, brought many innovations to the Arabic poetry of that period. Some of the achievements of the Kindah state (in the field of architecture and management) were later used in the Islamic period.

***Шихали Алиев***

**Социально-политическое положение арабов в доисламский период**

***Р е з ю м е***

Информацию о доисламской арабской истории мы в основном получаем из греческих (византийских), сирийских источников, а также поэтических произведений и сказаний исламского периода. В период джахилийи (до прихода Ислама) взаимоотношения в арабском обществе друг с другом регулировались в основном посредством кровного родства между различными арабскими родами, сформировавшимися внутри- и межродовыми связями, а в родовых государственных образованиях отношения также строились на основе «асабия» (принципов преимущества рода). Эта система взаимоотношений хоть и в чем-то сходна с понятием древней тюркской родовой системы «торе», тем

не менее, отличается от нее. Различные рода, в основном переселившиеся с Юга, создали на Севере Арабского полуострова государства (царства) Киндидов, Лахмидов и Гассанидов. Эти царства в различные периоды находились в вассальной зависимости от соседних империй – а в лучшем случае в союзнических отношениях с ними. Византийская и Сасанидская империи извлекали свою выгоду, решая вопросы безопасности, военного характера и определяя взаимоотношения между этими вассальными царствами. Византийская и Сасанидская империи с целью сохранения и расширения своего влияния в этих царствах, наряду с оказанием различной помощи и поощрительных шагов (раздачи высоких титулов и др.), придавали очень важное значение также религиозному фактору. Обе империи проводили подобную же политику в Кавказской Албании, существовавшей на территории Азербайджана. Как отмечал Ирфан Шахид, в тот период арабы оказались стиснутыми между большими силами – Византийской, Сасанидской империями и государством Химьяритов. В культурной сфере они тоже находились под сильным влиянием этих трех сил. Несмотря на это, приблизительно три века доисламского периода ознаменованы периодом расцвета арабского языка, зодчества и поэзии. Представитель правящего рода Киндидов, принц и поэт Имру аль-Кайс принес множество новшеств в арабскую поэзию того периода. Некоторые достижения государства Киндидов (в области зодчества и управления) были позже использованы и в исламский период.